Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

**F. Köçərli adına Respublika
Uşaq Kitabxanası**




# İnformasiya anlayışı forma və onun xassələri

**26 noyabr Beynəlxalq İnformasiya Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

Bakı-2023

**Tərtibçi:** **Nərgiz Məcidova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar mədəniyyət işçisi**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**"İnformasiya anlayışı forma və onun xassələri"-** 26 noyabr Beynəlxalq İnformasiya Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed Nərgiz.M; ixt.red. və burax. məsul Ş. Qəmbərova; - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 44s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Beynəlxalq informasiya günü

“İnformasiya” termini, latın sözü olub izahetmə, şərhetmə, məlumat vermə mənalarını daşıyır. “İnformatio” sözündən yaranmış termin ifadə olunma formasından asılı olmayaraq insanlar, canlılar, cansızlar, faktlar, hadisələr, proseslər və s. haqqında olan məlumat və biliklərin toplusunu nəzərdə tutur. İnformasiyanın yayılması, təbiətdə və cəmiyyətdə, bizi əhatə edən obyektləri, hadisələri, onların xassələri, qarşılıqlı münasibətləri haqqında məlumatların yığılması olub, onlara dair bilikləri çoxaltmaq məqsədi daşıyır.

Təbiətdə isə insanlar, canlılar arasında ötürülə bilən hər bir informasiyanı saxlamaq və yaymaq mümkündür. Demək olar ki, insanlar beyinlərində kompyuterlər isə yaddaşlarında saxladıqları informasiyalar ilə fəaliyyət göstərirlər.

Təqvimdə məqsədi informasiya sahəsində olan problemlərin həllinə yönələn hər il noyabrın 26-sı dünyada Ümumdünya İnformasiya Günü qeyd edilir ki, bu günün təsisi BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusa malik olan Beynəlxalq İnformasiyalaşdırma Akademiyası və Ümumdünya İnformasioloji Parlamentin qərarı ilə təsdiqlənmişdir. İKT sahəsində çalışanların peşə bayramları sayılan bu günün qeyd edilməsinin məqsəsdi informasiya biliklərini cəmiyyətdə və insanlar arasında yaymaqdan ibarətdir. Həmçinin günün təsis edilməsinin əsas məqsədi bu sahədə olan başlıca problem və məsələlərə mütəxəssislərin diqqətini yönəltmək, onların həlli yollarını tapmağa kömək etməkdir.

İnformasiya insanlar arasında şifahi, yazılı və ya hər hansı digər formada ötürülən bir məlumatdır. Bəşər tarixində informasiya həmişə mühüm əhəmiyyət kəsb etdiyindən XX əsrin ortalarından başlayaraq, cəmiyyətdə rolu çoxalmışdır. Müasir sivilizasiyanın inkişafında informasiyanın mahiyyəti, forması informasiya cəmiyyətinin formalaşması üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri olmuşdur. Ona görə də hər il noyabrın 26-sı Ümumdünya İnformasiya Günü kimi qeyd edilməyə başlamışdır. Bu gün BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusa malik olan Beynəlxalq İnformasiyalaşdırma Akademiyası və Ümumdünya İnformasioloji Parlamentin təşəbbüsü ilə qeyd olunur. Bütün dünyada "Ümumdünya İnformasiya Günü" (World Information Day) adı ilə qeyd edilən bu gün hər il 26 noyabr tarixində qeyd edilir. Bu əlamətdar günün beynəlxalq təqvimə salınması ilə bağlı qərar 26 noyabr 1992-ci ildə Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının təşəbbüsü ilə keçirilən I Beynəlxalq İnformasiyalaşdırma Forumunda verilmişdir. Beynəlxalq İnformasi Gününün təsis edilməsinin əsas məqsədi bu sahədə olan başlıca problem və məsələlərə mütəxəssislərin diqqətini yönəltmək və onların həlli yollarını tapmaqdır.

Bəşər tarixində həmişə əhəmiyyətli olan informasiyanın rolu XX əsrin ortalarından başlayaraq sosial tərəqqi, elm və texnikanın sürətli inkişafı nəticəsində cəmiyyətdə daha da artaraq geniş vüsət almağa başlamışdır. Dünyada müasir sivilizasiyanın inkişafında informasiyanın rolu, informasiya və informasiyalaşdırma proseslərinin geniş vüsət alması, informasiya cəmiyyətinin formalaşmasına şərait yaratmışdır. Bu da 26 noyabr 1992-ci ildə Beynəlxalq İnformasiyalaşdırma

Akademiyasının təşəbbüsü ilə keçirilən I Beynəlxalq İnformasiyalaşdırma Forumunda ənənəvi olaraq hər il 26 noyabr tarixinin Ümumdünya İnformasiya Gününün qeyd olunmasına dair qərarın qəbul olunmasını vacib etmişdir. Bu əlamətdar gün rəsmi olaraq 1994-cü ildə YUNESKO tərəfindən qeydiyyata alınaraq dünyanın 29 ölkəsindən 10 mindən artıq alim və mütəxəssisin iştirak etdiyi forumun işində diqqətə çatdırılıb. Ümumdünya İnformasiya Gününün keçirilməsinin qərara alınmasının əsas məqsədi elə bu sahədə olan başlıca problemləri və məsələləri hər il mütəxəssislərin diqqətinə çatdırmaqdır. Hər il 26 noyabr tarixinin məhz bu ad altında qeyd edilməsi təşəbbüsçüsü Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasında məşvərətçi statusa malik olan Beynəlxalq İnformasiyalaşdırma Akademiyası və Ümumdünya İnformasioloji Parlamenti tərəfindən irəli sürülüb. Əlamətdar günün beynəlxalq təqvimə salınması ilə bağlı qərarın verilməsi informasiya cəmiyyətinin daha möhklənməsinə kömək etdi.

**Kompyuterlərdə İnformasiya daha çoxdur**

İnformasiya (ing. informathion, rus. информация, türk. bilgi) – verilənlərdə insanların gördüyü mahiyyət, qiymət. Adətən, verilənlər faktlardan ibarət olur ki, onlar da müəyyən konteksdə informasiyaya çevrilir və insanlara aydın olur. Kompüterlər verilənlərin mahiyyətini anlamadan onları emal edir. Çox zaman “verilən” və “informasiya” terminləri sinonim kimi işlənsə də, onlar arasında müəyyən fərq var. Verilənlər (data) hər hansı məlumatlardır və onların mənasının olub-olmamasının elə bir önəmi yoxdur. Məsələn, kompüterdə '19091985' və ya 'VD51FGD' simvollar sətri verilənlərdir. İnformasiya isə mənası olan verilənlərdir. Siz simvollar yığınının nə ifadə etdiyini bilirsinizsə, o, informasiya olur. Məsələn, '19091985' hər hansı

malın kodu, yaxud kiminsə doğum tarixi (19 sentyabr 1985) ola bilər. Onun mənasını bildikdə o, sizin üçün informasiyaya çevrilir.

**Ümumi məlumat**

İnformasiya təbiətdə siqnallar şəklində ötürülür və iki tipə ayrılır: analoq və rəqəmli. 465 hissiyyat üzvlərinə görə analoq, kompüterlər isə rəqəmli informasiyaların köməyilə fəaliyyət göstərir. İnformasiyanın istifadəyə yararlı olması üçün aşağıdakı şərtlər ödənilməlidir (informasiyanın xüsusiyyətləri):

tam (tam şəkildə təsvir olunmalıdır);

düzgün (həqiqi situasiyanı əks etdirməlidir);

qiymətli (maksimum az məsrəflə əldə edilməlidir);

əhəmiyyətli (istifadəçi üçün vacib olmalıdır);

aktual (cari vaxtda tələb edilən olmalıdır);

anlamlı ( istifadəçinin başa düşdüyü tərzdə hazırlanmalıdır).

**İnformasiyanın əsas funksiyası**

İnformasiya hal-hazırkı və potensial sahibinə hər hansı sahədə (maddi, siyasi, hərbi) mənfəət gətirirsə, bu informasiya qiymətli informasiya sayılır. İnformasiyanın qorunması informasiyanın itirilməsi, dəyişdirilməsi, silinməsi ehtimallarının qarşısını alır. İnformasiyalar yaranmasına, qəbul edilməsinə, ötürülməsinə, ifadə formalarına və vasitələrinə, istifadəsinə və s. görə müxtəlif cür qruplaşdırıla bilər. İnformasiyaları hər hansı əlifba simvollarının köməyi ilə ifadə etmək və onu digər əlifbaya da keçirmək olar. İnformasiya (məlumat) (latınca informatio, informare — məlumatlandırmaq, formaya salmaq ) – abstrakt

anlayış, hara çatdırılmasından asılı olmayaraq çoxşaxəli məlumat. Təbiətdə və cəmiyyətdə bizi əhatə edən obyektlər, hadisələr, onların xassələri, qarşılıqlı münasibətləri haqqında məlumatlar yığımı olub, onlara dair bilikləri çoxaltmaq məqsədi daşıyır. İnformasiya təbiətdə siqnallar şəklində ötürülür və iki tipə ayrılır: analoq və rəqəmli. İnsanlar öz hissiyyat üzvlərinə görə analoq, kompüterlər isə rəqəmli informasiyaların köməyilə fəaliyyət göstərir. İnformasiyanın istifadə şərtləri Informasiyanın istifadəyə yararlı olması üçün aşağıdakı şərtlər ödənilməlidir (informasiyanın xüsusiyyətləri): tam (tam şəkildə təsvir olunmalıdır); düzgün (həqiqi situasiyanı əks etdirməlidir); qiymətli (maksimum az məsrəflə əldə edilməlidir) əhəmiyyətli (istifadəçi üçün vacib olmalıdır); aktual (cari vaxtda tələb edilən olmalıdır); anlamlı (istifadəçinin başa düşdüyü tərzdə hazırlanmalıdır).

**İnformasiya əsrində kitabxanalar**

İnformasiyanı müxtəlif intensivliyə malik olan siqnallar daşıyır. Bu tipli informasiyanı analoq informasiya adlandırırlar. XX əsrin II yarısından informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı “informasiya əsri və informasiya cəmiyyəti” anlayışlarının meydana gəlməsinə səbəb olmuşdur. Bununla bağlı 1865-ci il mayın 17-si Beynəlxalq Teleqraf İttifaqının əsasının qoyulması ilə əlaqədar gün təsis edilimişdir. 2005-ci ilədək 17 may tarixi Beynəlxalq Telekommunikasiya Günü adlanmışdır. Lakin BMT-nin qərarı ilə 17 may 2006-cı ildən etibarən bu günün adı dəyişərək “Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü” kimi qeyd edilməyə başlamışdır. Buna səbəb sosial həyatın müxtəlif sahələrində - elmdə, incəsənətdə, siyasətdə, iqtisadiyyatda, hətta məişətdə informasiyanın əhəmiyyətinin

artmağa başlaması olmuşdur. Bundan əlavə 17 may tarixi ilə yanaşı  hər il 26 noyabr tarixidə 1992-ci ildən Ümumdünya İnformasiya Günü adı ilə qeyd edilir. Məhz günün  bu ad altında qeyd edilməsi təşəbbüsü Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasında məşvərətçi statusa malik olan Beynəlxalq İnformasiyalaşdırma Akademiyası və Ümumdünya İnformasioloji Parlamenti tərəfindən irəli sürülmüşdür. Əlamətdar günün beynəlxalq təqvimə salınması ilə bağlı qərar 26 noyabr 1992-ci ildə Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının təşəbbüsü ilə keçirilən I Beynəlxalq İnformasiyalaşdırma Forumunda verilmişdir. Qədim dövrlərdə xəbər aparıb gətirən göyərçinlər olmuşdur. Sonralar onları poçt daşımaları xidməti əvəzləmişdir. Təqvimdə elə bu münasibətlə oktyabr ayının 9-da bütün dünyada poçt sahəsi işçilərinin peşə



bayramı - Ümumdünya poçt günü qeyd edilir. Bəs siz uzaq keçmişdə xəbərlərin necə ötürüldüyü haqqında nə bilirsiniz? Elçilər, daşıyıcı göyərçinlər, atlar vasitəsi ilə çatdırılan məktublar poçt və s. göndərişləri haqqında gəlin birlikdə öyrənək. Kitabxanada informasiya günü ilə əlaqədar keçirilən klassik formadan yeni formaya keçən informasiya ötürücüləri. Bu canlı ötürücülərdən biri olan göyərçinlər haqqında oxuçulara danışa bilərik. Kitabxanaya təşkil edilən ekskursiyada şagirdlərə sülh quşu sayılan göyərçinin bu xüsusiyyəti haqqında danışırıq. Daha çox Azərbaycan şifahi xalq ədəbiyyatında - nağıllarımızda rast gəlinən belə nağıllardan onlara nümunələr gətiririk. Şagirdlərə keçmiş zamanlarda atlarla yanaşı  məlumatı aparan canlılardan biri də göyərçinlər olması haqqında danışırıq. Bu səbəbdən də bu quşlar tarixdə insanlıq

həyatına ən çox fayda göstərmiş canlı kimi tanınmışlar. Onlar sülh quşları hesab edilmişlər. Hətta bu heyrətamiz quşlara planetimizn 30-dan çox ölkəsində heykəllər qoyulmasından danışırıq.
Bəs göyərçinlər xəbəri bir yerdən digərinə necə aparır? Son tədqiqatlar poçt göyərçinlərinin istiqaməti müəyyən etmək üçün yerin maqnit sahəsindən istifadə etdiyinə dair nəzəriyyəni dəstəkləyir. Hələ 1150-ci ildə Bağdadda məktub yollamaq üçün göyərçinlərdən istifadə edilmişdir. Məşhur Röyters xəbər agentliyinin banisi Pol Röyter (Paul Reuter) xəbərləri və birja qiymətlərini paylamaq üçün 1850-ci ildə Belçikanın Brüksel şəhəri ilə Almaniyanın Aaxen şəhəri arasında 45 göyərçindən istifadə etmişdir. Bəs poçt göyərçinləri adətən uzaq məsafələri necə qət edə bilirlər? Ən uzaq məsafəyə uçan göyərçinin rekordu təxminən 1689 mil və 2719 km-dir. Alimlər on illər davam edən tədqiqatlardan sonra göyərçinlərin, həqiqətən də maqnit sahəsini qavrama qabiliyyətinə sahib olduğunu müəyyən etmişlər. Onların güclü qoxu hissiyatı ilə maqnit sahəsini qavrama qabiliyyətindən bəhs edən nəzəriyyəyə üstünlük verilmişdi. Göyərçinlərin qəhrəmanlıqlar nümayiş etdirdikləri neçə-neçə hadisələr tarixdə öz əksini tapıb bunu sübut etmişdir. Məsələn 1942-ci ildə almanlar ingilis sualtı qayığını vururlar. Qayıq xəsarət alaraq suyun dibinə çökür. Əgər bir cüt göyərçin olmasaydı ekipaj belə həlak olacaqdı. Sualtı qayıqdan kiçik kapsulalar vasitəsilə torpedo aparatı vasitəsilə quşlar buraxılır. Erkək göyərçin sudan çıxana qədər boğularaq ölsədə dişi göyərçin havaya çıxmağa müvəffəq olur və təyin edilən ünvana özünü çatdırır. Sualtı qayığın ekipajı xilas edilir. Həmin göyərçinin şərəfinə heykəldə ucaldılır. Başqa bir hadisədə isə “The Mocker” adlı bir göyərçin yaralanmadan əvvəl 52 ədəd uğurlu mesaj daşımasından danışılır. “Cher Armi” adlı digər göyərçin isə bir gözünü və ayağını itirmiş lakin uğurlu bir

şəkildə çatdırdığı mesaj mühasirdə olan böyük bir Amerikan piyada qoşununu xilas etmişdir. Göyərçinlərin insan həyatını xilas etdiyi yüzlərlə belə hadisələri qeyd etmək olar.



Əziz uşaqqlar gəlin görək göyərçinlər xəbəri bir yerdən digərinə necə aparır? Bu sahədə xüsusi qabiliyyəti olmayan bu quşlar, çox sadə üsulla məlumatı qeyri-iradi olaraq bir yerdən digərinə çatdırmış olurlar. İlk əvvəl bir yuvada saxlanılan bu quş daha sonra digər bir yerə aparılır. Yeni yuvada bir müddət yaşayan göyərçinin yeni yuvadan azad edilən kimi dərhal əvvəlki yuvasına geri dönür. Bu isə, məlumatın bir yerdən digər yerə çatdırılmasına şərait yaratmış olur. Bu quşların əvvəlki yuvalarını necə tapdıqları isə uzun müddət fərziyyələr şəklində ortaya atılmış, ancaq 1960-cı illərdə buna elmi açıqlamada gətirilmişdir. Məlum olmuşdur ki, göyərçinlər cəhəti və hər

hansı bir ərazini tapmaq üçün atmosferdəki hava malekullarından və qütb maqnitlərindən istifadə edirlər.




**Savadlı olmaq üçün uşaqların çox mütaliə etməsi lazımdır.** Yerli və xarici yazıçıların əsərlərinin mütaliəsi məktəbyaşlıların savadlı olmasına kömək edər. Qeyd etdik ki informasiya sözü çoxmənalı termindir. İnformasiyalar yaranmasına, qəbul edilməsinə, ötürülməsinə, ifadə formalarına və vasitələrinə, istifadəsinə görə müxtəlif cür formalarla olur. Uşaqların informasiya almasında televiziyanın da rolu böyükdür. Onların baxdığı cizgi filmləri, maraqlı video roliklər, filmlər, məlumatlarla dolu verilişlər  və s. bir informasiya ötürücüsüdür. Baxdığımız cizgi filmləri uşaq yaddaşımızda daha yaxşı həkk olur.
https://www.youtube.com/watch?v=uTERolX_j60

Kitabxanada kişikyaşlı uşaqlar üçün “Cizgi filmlərimizlə öyrənək” adlı cizgi filmləri həftəsi keçirə bilərik.



Məşhur sovet cizgi filmi obrazı olan Poçtalyon Peçkin obrazını yaxşı xatırlayırsınız. Prostokvashino kəndi haqqında Sovet cizgi filmi, birdən çox nəslin böyüdüyü uşaqlar üçün ən yaxşı televiziya layihələrinə daxil edilmişdir. Məşhur cizgi filmlərinin əsasını uşaq müəllifi Eduard Uspenskinin qələmə aldığı "Fedor dayı, Köpək və Pişik" əsəri təşkil etdi. İti Sharik və pişik Matroskinin dostları olan bir oğlanın hekayəsi cizgi film seriyasına həyat vermişdirdi. Kitabda adi bir sovet ailəsinin həyatı və sərgüzəştləri təsvir edilir. Cizgi filminin nümayişi kitabxananın nağıl otağında təşkil edilir.

**Keçiriləcək tədbirlər:**

**İNFORMASİYA GÜNÜ AZƏRBAYCANDA;**

Hər zaman Azərbaycanda informasiya cəmiyyətinin inkişafı üçün mühüm işlər görülüb. Bu özünü Informasiya texnologiyalarının müxtəlif sahələrində - rabitə, telekommunukasiya, İKT biliklərinin ötürülməsi, poçt, və s. də göstərir. Kitabxanada informasiya xidməti oxucuların informasiya tələbatını ödəməyə yönəlmiş fəaliyyət sahəsidir. Bu gün ölkəmizdə yüksək səviyyədə informasiya xidməti göstərən vasitələrlə təmin edilmiş kitabxanalar vardır. Kitabxanaların internet şəbəkəsinə qoşulması`, oxucular üçün informasiya məkanının formalaşması kitabxanaların oxuculara çatdırmaq üçün lazım olan informasiyalarla zənginləşməsinə şərait

yaradan vasitələrdəndir. İnformasiya xidməti oxucuların informasiya tələbatını ödəməyə yönəlmiş bir fəaliyyət sahəsi olduğundan kitabxanalar da oxuculara informasiyanı ötürən bir mədəniyyət ocağı olaraq həm də kitabları təbliğ edən mədəniyyət müəssisəsidir. Kitabxanada mövcud ədəbiyyat nümunələrini müxtəlif formalarda təbliğ etməklə kitabxanaçı oxucuları bu mövzuda mütaliəyə həvəsləndirmiş olur.

Oxucuları mütaliəyə həvəsləndirmək üçün mədəniyyət müəssisəsi olan kitabxanalarda digər əyani və şifahi təbliğat formalarından da istifadə edilir. Müxtəlif tədbirlər keçirilir, sərgilər hazırlanır. Bu tədbirlər oxucular üçün maraqlı olsun deyə müxtəlif şəkildə həyata keçirilir. Uşaqları mütaliəyə həvəsləndirmək üçün kitab sərgiləri, kitab icmalları, müzakirələr, söhbətlər, ucadan oxu, kitab təqdimatı, müxtəlif rəsm, rəqs, inşa və s. müsabiqələri, keçirmək məqsədəuyğun olar. Kompyuter, informasiya əsrində yaşadığımızdan oxucuları cəlb etmək üçün bu tədbirlərdən virtual şəkildədə istifadə edə bilirilk. Onları kitabxanın istifadə etdiyi elektron adreslərində yerləşdirə bilirik.

Bu baxımdan Kitabxanada Beynəlxalq İnformasiya Günü ilə əlaqədar keçirilən biblioqrafik icmallar da kitabxanada keçirilən ən maraqlı tədbirlərdən biri olub oxucuların kitabla yaxından tanış olmasına, mövzu ilə bağlı ədəbiyyatın təbliğinə, kömək edən tədbirlərdəndir. İnformasiya günündən bəhs edən kitab sərgiləri, biblioqrafik icmallar, söhbər və müzakirələr, müsabiqələr, festivallar və s. kimi maraqlı tədbirlər oxucular üçün əyləncəli və düşündürücü olmaqla yanaşı onları ədəbiyyata, mütaliəyə cəlb etmiş olar. Həmçinin onlayn şəkildə kitabxananın internet şəbəkələri vasitəsi ilə sual-cavabların, viktorinaların hazırlanması məqsədəuyğun olar. Tədbirlərdə oxuculara

Sərgiləri *“26 noyabr Beynəlxalq İnformsiya günüdür”, “İnformasiya hüquqlarımız və biz”, “Şifahi xalq ədəbiyyatı nümunələrimizdən başlayan gün”, “Biliklə qazanılan informasiya”* başlıqları seçə bilərik.

Ədəbiyyatımızda şifahi xalq ədəbiyyatı nümunələrinin belə bir informasiya ötürücüsü olduğunu deyə bilərik. Ona görə ki, xalqın qədim tarixi varlığını siyasi amillərlə yanaşı həm də onun mədəniyyət, ədəbiyyat nümunələri göstərir. Hər bir xalqın ədəbiyyat nümunələri dedikdə isə yada düşən ilk öncə xalqın folklor nümunələri olur. Hansı ki yaranıb yayılmasında iştirak edən ilk öncə el olur. Folklor yarandığı vaxtdan ağızdan-ağıza keçərək qədim adət - ənənələr, mədəniyyət nümunələri folklor nümunələri şəklində gələcək nəsillər üçün bir məlumata çevrilib. Ağızdan-ağıza yayılaraq inkişaf edən folklor zamanla böyüyərək yeni - yeni janrlar formasına düşərək sonra yazılı ədəbiyyat nümunələri yaranıb. İnformasiya saxlayıcısı olan kitabxanada oxuculara informasiya günün təbliği günü ilə bağlı şifahi xalq ədəbiyyatı nümunələrindən olan “Kitabi-Dədə Qorqud” dastanı ətrafında tədbirlər hazırlaya bilərik. Dastanın boylarından birində deyildiyinə görə bir qəbilə, tayfa digər qəbiləyə məlumatı dağ başında od yandırmaqla ötürürdü. Tayfalar bir tonqal qalayanda bütün eli-obanı şənliyə, toya çağırardılar. İki tonqal qalayanda bütün eli-obanı düşmənlə mübarizəyə, müharibəyə səsləyərdilər. Üç tonqal qalayanda isə bütün el-oba birliyə dəvət olunardı. Novruz bayramında çərşənbələrdə yandırdığımız tonqallar bu gün Dədə Qorquddan bizə yadigar qalan örnəkdir.

*Tədbir zamanı Dədə Qorqudun zəfər tonqalı yandırmaq üçün Qaraca Çoban göndərməsi səhnəsini oxucularla hazırlaya bilərik.*

**Dədə Qorqud:** Yurdumuzun başına çox bəlalar gəlmişdir. Bu meydanda çox igidlərimiz qırıldı. Amma tamam qırılıb qurtarmadıq. Hələ varıq, olacağıq, qalacağıq, artacağıq.

Torpağın yurd, Vətən olması üçün iki şərt lazımdır. Biri odur ki, torpağı gərək əkib-becərəsən. İkincisi odur ki, gərək onu yağılardan qoruyasan. Torpağı əkib-becərməsən, qorumağa dəyməz. Onu qorumasan, əkib-becərməyə dəyməz.

Dədə Qorqud üzünü Qaraca Çobana tutub

...Qalx uca dağın başına, üç tonqal qala. Ona görə ki, Bir tonqal qalayanda elimiz şənliyə toplaşır,

*iki tonqal qalayanda ......*
*üç tonqal qala ki hamı ......, bilsinlər ki, zəfər qələbə çalmışıq*

*İşimiz avand, torpağımız bərəkətli olsun.*
*Çağlayıb axan sularımız qurumasın.*
*Qanadlarımız qırılmasın.*
*Uca dağın ocaqları həmişə yanar dursun…*

Bu gün od, tonqal istiliyin rəmzi və yazın gəlişi də havaların isinməsinin əsas göstəricisidir. Buda o deməkdir ki, odun qalanması ilə zəfər və ya məğlubiyyət haqqında məlumat qarşı tayfaya ötürülür.
Oxuculara bu günlə bağlı keçirilən tədbirlər həftəsində insanların həyatında rol oynayan poçt və rabitə xidməti haqqında məlumat verə bilərik. Onlara poçt xidməti, poçt göndərişlərinin növləri ilə tanış etmək üçün poçt rabitəsi, məktub daşıma xidməti və s. haqqında hazırlanmış zəngin məlumatlı videoroliklə məlumatlandıra bilərik. Bu onların bacarıqlarını inkişaf etdirmək, informasiya savadını inkişaf

etdirmək üçün mariflændirici xüsusiyyət daşıyacaq. Tədbirlər həftəsinə aşağıdakı formalarda tədbirləri də əlavə edə bilərik.

**Tapmaca yarışması:**

Əziz balalar sizə bir neçə tapmaca göndəriblər. Gəlin birlikdə görək tapmacaların cavabı nədir?

**Kitabxanaçı:** İndi sizə bir neçə tapmaca deyəcəm. Gəlin birlikdə açmasını tapaq.

1. Ağca atı nalladım,

   Səmərqəndə yolladım.

   Məktub

2. Bakıda bişər
   Şəkidə düşər

   Məktub

3. Mən maviyəm divardan asılıram
   Və çoxlu salamlar məndə saxlanılır.

   Poçt qutusu

4. Danışaram dəmirdən
   Cavab gəlir kəndirdən

   Telefon

5. Həvəng-həvəng içində ,
   Həvəngi zəng içində.
   Nə yerdədir, nə göydə
   Əsil firəng içində

   Telefon

**Söhbət:**

Azərbaycanda uşaqlarla bağlı siyasətin əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğu vaxtlar Ulu öndərin təşəbbüsü ilə önəmli beynəlxalq konvensiya və protokollar qəbul edilərək qüvvəyə minmişdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra ilk qoşulduğu beynəlxalq sənədlər arasında uşaqlarla bağlı olanları olmuşdur. Azərbaycan 1992-ci ildə BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasına, 2002-ci ildə isə Konvensiyanın iki əlavə protokoluna qoşulmuşdur. 1998-ci ildə ölkəmizdə BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasının müddəalarını özündə əks etdirən "Uşaq Hüquqları haqqında" Qanun qəbul edilmişdir. Bu gün Ulu öndərin siyasi kursu Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Uşaq hüquqlarının müdafiəsi, uşaqların normal formalaşmasına, sağlam böyüməsinə yönələn bir çox dövlət proqramları qəbul edilərək onların həyata keçirilməsi məqsədi ilə tədbirlər planı müəyyənləşdirilir. 1989-cu il noyabırın 20-də Uşaq hüquqları haqqında Konvensiya BMT-nin Baş Məclisinin 44-cü sessiyasında 20 noyabr 1989-cu il tarixində qəbul edilib. Azərbaycan Respublikasının Konstitusiyanın 50- ci maddəsinə əsasən hər kəsin istədiyi  məlumatı əldə etmək, ötürmək və yaymaq hüquq və azadlığı vardır. "İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunun 2-ci maddəsinə əsasən hər kəs birbaşa və ya nümayəndəsi vasitəsi informasiya sahibinə müraciət etmək, informassiyanın növünü və əldə etmək formasını seçmək hüququna malikdir.




1989-cu il 20 noyabırında BMT-nin Baş Məclisinin 44-cü sessiyasında Uşaq hüquqları haqqında Konvensiya qəbul edilmişdir. Konvensiyanın 13-cü bəndinə əsasən Uşağın öz fikrini sərbəst ifadə etmək hüququ vardır, bu hüquqa sərhədlərdən asılı olmayaraq, hər cür informasiyanı və ideyaları şifahi, yazılı və ya çap edilmiş formada, incəsənət əsərləri formasında və ya istədiyi digər vasitələrin köməyi ilə axtarmaq, almaq və ötürmək azadlığı vardır. Konvensiyanın 17-ci bəndində uşaqların müxtəlif milli və beynəlxalq mənbələrdən informasiya və materiallar, xüsusən uşağın sosial, ruhi və əxlaqi rifahına, habelə sağlam fiziki və psixi inkişafına köməyə yönəldilmiş informasiya və materialları almaq hüququ olduğu göstərilir. Bu məqsədlə iştirakçı dövlətlər, müxtəlif televiziya sahələrində, radio, internet sahələrində uşaqların faydalı informasiya ilə təmin edilməsinə kömək etməlidirlər.

Oxucular arasında onların informasiya almaq hüquqlarının uşaq hüquları konvensiyasında yer almasından söhbət aça bilərik.

Tarix boyu bəşəriyyətin şəxsiyyət və ləyaqətinə cəmiyyətdə hörmət edilməsi üçün səylər göstərilmiş və təkmilləşdirilmişdir. Bunun üçün Beynəlxalq normalara cavab verən kişi və qadın bərabərliyini tənzimləyən, uşaq hüquqlarını qoruyan, insan hüquqlarının kütləvi şəkildə pozulmasının qarşısını alan insan hüquqları bəyənnaməsi işlənib hazırlanmışdır.

İnsan hüquqlarına dair konsepsiyanın yaranmasına səbəb bütün insanların bərabər hüquqa malik olmasını çatdırmaq və onlara öz hüquqlarını qorumağı bildirməkdir. “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa

Konvensiyasının 10-cu maddəsinə əsasən hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir.

Beynəlxalq informasiya Günü münasibətilə hazırlanmış tədbirə müəllimləri, rabitə, poçt işçiləri, pedoqoqları məktəb şagirdləri və tələbələri dəvət edirik. Əvvəlcə aparıcı tədbirin mahiyyəti haqqında qonaqlara məlumat verir, bu günün tarixi, informasiyanın əldə edilməsi mənbələrindən danışır. Daha ətraflı məlumatı oxucular dəvət edilmiş qonaqlardan alırlar.

**Aparıcı:**Bəşər tarixində informasiya həmişə mühüm əhəmiyyət kəsb edib XX əsrin ortalarından başlayaraq sosial tərəqqi, elm və texnikanın sürətli inkişafı nəticəsində cəmiyyətdə rolu daha da artmışdır. Qloballaşan dünyada informasiyanın mahiyyəti və müasir sivilizasiyanın inkişafında rolu, informasiya və informasiyalaşdırma proseslərinin geniş vüsət alması, informasiya cəmiyyətinin formalaşması mühüm məsələlərdən biri olmuşdur.

**Aparıcı:** Belə ki, 1992-ci il noyabrın 26-da Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının təşəbbüsü ilə I Beynəlxalq İnformasiyalaşdırma Forumu keçirilir. Forumun işində dünyanın 29 ölkəsindən 10 mindən artıq alim və mütəxəssis iştirak edir. Tədbirdə hər il 26 noyabr tarixində Ümumdünya İnformasiya Gününün qeyd olunmasına dair qərar qəbul olunur.

**Aparıcı:** Kökü qədim dövrə bağlı olan informasiyanın ötürülməsi bu günkü günümüzə müxtəlif şəkillərdə gəlib çatmışdır. Səslərdən, kəlmələrdən, od – ocaq qalamaqla bir-birimizə ötürdüyümüz məlumatları, bu gün virtual şəkildə internet vasitəsi ilə çatdıra bilərik.

**Aparıcı:** Şifahi xalq ədəbiyyatı nümunələrimizi oxuyarkən onlardan belə keçmiş mədəniyyətimiz, ayinlərimiz, adət-ənənələrimiz haqqında əkin-biçin nəğmələrimizdən, mövsüm nəğmələrimizdən məlumatlanmış oluruq.

Səməni, saxla məni,
İldə göyərdərəm səni,
Babayi - bayram gəlir,
Elimizə, günümüzə,
Babaları yad edərlər,
Dostlara qonaq gedərlər,
Yumurtanı yeddi irəng
Gəlinlərin süfrəsinə qoyarlar.

Ədəbiyyatımızda poçtalyon mövzusu hər dövrdə var. Xüsusən müharibə vaxtlarında anaların intizarına son qoyan bir peşə olmuşdur. Elə yazıçı Süleyman Rüstəmin "Ana və Poçtalyon" şeirində bunun şahidi oluruq.

**Aparıcı:** Əsərdə Poçtalyon obrazı elə Ana obrazı ilə bərabər tutula biləcək səviyyədə verilir.

**Aparıcı:** Bu, poeziyamızda ilk Poçtalyon obrazı sayılır. O, bizim o dövrkü şairlərimizin yaratdıqları əməkçi-qurucu-zərbəçi obrazlarından fərqlənirdi. Gəlin oxucuların ifasında şeirdən bir parçanı dinləyək.

Tanımayan tapılmaz məhlədə poçtalyonu
Hamı istərdi onu hamı sevərdi onu.
Onu tanıyırdılar adamlar addımından,
Bir bayramdı çantası dolu gəldiyi zaman
Anaya şad xəbərlər gətirmişdi vaxıilə.

İndi kağız almayan ana gələrək dilə,
Söylədi poçtalyona bir neçə acı kəlmə:
"Məktub olmasa, bir də sən bu həyətə gəlmə!".
Poçtalyon söz demədi, dilsiz dayanıb durdu,
Elə bil dağ başında onu ildırım vurdu

**Aparıcı:** Burada yazıçımız Mir Cəlalın "Süleyman Rüstəm" məqaləsində dediyi bu cümlələr yada düşür: Şair poçtalyonu da eyni təbii, səmimi və aydın bədii rənglərlə təsvir etmişdir. Poçtalyon quru bir idarə qulluqçusu, sadə bir icraçı deyildir. O, öz peşəsinin müqəddəsliyini duyur və qiymətləndirir. Hər ailəyə məktub gətirdikcə, evlərdə sevinc yaratdıqca, öz vətəndaşlıq vəzifəsini yerinə yetirdiyini duyduqca ruhu təzələnir, ürəyi açılır, ömrü uzanır. O, heç kəsi məktubsuz, xoş xəbərsiz qoymaq istəmir". Amma sonda müharibə və fəlakət olsa da insanları, heç bir-birinə qohum olmayan adamları mənən birləşdirir, ana ilə poçtalyon arasında umu-küsü olsada bir gün küçə qapısı çox sürətlə açılır və qoca poçtalyon anaya oğlundan məktub gətirir. Beləliklə, dərdin sonu çatır, ana da, poçtalyon da - hər ikisi sevinir.

Mərhəmətli, möhtərəm anayadır bu kağız!..
Hamı bir səslə dedi: "Gözlərin aydın, ay qız!"
Ana, gözləri yaşlı, ətir saçdı dilindən,
Tez öpdü poçtalyonun məktub verən əlindən...

**F. Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**
**Kitablarda**

Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında : rəqəmlər və faktlar. I və II cild. - Bakı : Nurlar, 2007. - 820 s.

Azərbaycanda informasiya cəmiyyəti. İnformasiya və kommunikasiya texnologiyaları : statistik məcmuə. - Bakı : Səda, 2007. - 135 s.

Dadaşov A. Kütləvi informasiya vasitələrində reklam və marketinq problemləri. - Bakı : Bakı Dövlət Universiteti Nəşriyyatı, 2001. - 166 s.

Elektron məlumat bazalarının yaradılması və virtual xidmət : Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik. - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2012. - 46 s.

Gündüz O. İnternet. Azərbaycan internet resursları. - Bakı : Multimedia Mərkəzi, 2010. - 416 s.

Heydər Əliyev və mətbuat : 4 clddə. I cild : Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar : yanvar, 1990-iyul, 1996. - Bakı : Nurlar, 2003. - 640 s.

Heydər Əliyev və mətbuat : 4 cilddə. II cild : Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar : iyul, 1996-iyul, 1998. - Bakı : Nurlar, 2003. - 640 s.

Heydər Əliyev və mətbuat : 4 cilddə. IV cild : Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar : noyabr, 2002-Mart, 2003. - Bakı : Nurlar, 2003. - 640 s.

İnformasiya əldə etmək hüququmuzu bilək. - Bakı : Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (OMBUDSMAN), 2021. - 9 s.

İnformasiya əldə etmək hüququnu təmin edək. - Bakı : Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (OMBUDSMAN), 2021. - 9 s.

Qurbanov A. Elektron kitabxanalar : dərs vəsaiti. - Bakı : MTM-İnnovation, 2018. - 300 s.

Rəhimli M. Kütləvi informasiya vasitələri demokratikləşmə prosesində. - Bakı : 2002. - 152 s.

## Dövrü mətbuatda

Abbasov S. İnformasiya cəmiyyətində kitabxanaların rolu və funksiyası // Mədəni-maarif. - 2009. - N 7. - S. 51-53.

Abdullayev M. Azərbaycan kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi davamlı xarakter daşıyır // Yeni Azərbaycan. - 2017. - 29 iyul. - № 134. - S. 5.

Abdullayeva A. Elmi tədqiqatların informasiya təminatında kitabxana-informasiya mərkəzinin fəaliyyəti : UNEC-90 // 525-ci qəzet. - 2020. - 12 iyun. - № 51. - S. 8.

Ağayev İ. Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarının inkişaf perspektivləri // Palitra. - 2016. - 3 mart. - № 40. - S. 6.

Ağayev Ş. Cəmiyyətin inkişafında informasiya mübadiləsinin texnoloji təşəkkülü // Azərbaycan məktəbi. - 2013. - № 4. - S. 43-47.

ASAN müraciət informasiya sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (21 avqust 2020-ci il) // Xalq qəzeti. - 2020. - 22 avqust. - № 166. - S. 1.

Aslan K. İnformasiya cəmiyyəti şəraitində gənclərə kitabxana xidmətinin müasir problemləri // Kitabxanaşünaslıq və informasiya. - 2010. - N 3. - S. 15-25.

Aslanova R. İnformasiya məkanı və mənəvi-psixoloji təhlükəsizliyimizə təhdidlər // Azərbaycan. - 2012. - 7 dekabr. - № 273. - S. 2. ; 8 dekabr. - № 274. - S.4.

Aydınoğlu T. Kütləvi informasiya vasitələrinə dövlət dəstəyi ildən-ilə artır // Xalq qəzeti. - 2014. - 2 fevral. - № 22. - S. 3.

Aydınoğlu T. Media informasiya məkanındakı dəyişikliklərə çevik reaksiya verməlidir // Xalq qəzeti. - 2019. - 13 fevral. - № 35. - S. 7.

Azadi S. 26 noyabr - Ümumdünya İnformasiya Günüdür // İki sahil. - 2019. - 26 noyabr. - № 218. - S. 29.

Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2 aprel 2014-cü il) // Respublika. - 2014. - 3 aprel. - № 65. - S. 2.

Bağırov R. Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı prioritet istiqamətidir // İki sahil. - 2015. - 5 dekabr. - № 226. - S. 17.

Bakıda "BakuTel - 2013" XIX Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi açılmışdır : Azərbaycan Prezidenti İlham Əliyev sərgi ilə tanış olmuşdur // Xalq qəzeti. - 2014. - 3 dekabr. - № 4. - S. 2-3.

Bakıda internet medianın informasiya təhlükəsizliyi məsələləri müzakirə olundu (4 fevral) // Azərbaycan. - 2014. - 5 fevral. - № 24. - S. 5.

Bayramov V. Ölkəmiz regional informasiya xidmətləri mərkəzinə çevrilir // Xalq qəzeti. - 2015. - 24 noyabr. - № 258. - S. 6.

Bayramova Z. 30 Noyabr Beynəlxalq İnformasiya Təhlükəsizliyi günüdür // Səs. - 2020. - 28 noyabr. - № 213. - S. 13.

Bayramova Z. 30 Noyabr Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günüdür // Səs. - 2019. - 30 noyabr. - № 222. - S. 13.

Cəbiyev Q. Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı // Xalq qəzeti. - 2017. - 12 iyul. - № 147. - S. 5.

Cəfərli R. Azərbaycan informasiya texnologiyalarının inkişafında dünyada öncül mövqedədir // Azərbaycan : qəzet. - 2016. - 16 dekabr. - № 279. - S. 1, 4.

Cəfərova S. Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində sürətlə inkişaf edən ölkələr sırasındadır : 2013-cü il İnformasiya-kommunikasiya texnologiyaları ilidir // Azərbaycan. - 2013. - 2 avqust. - № 168. - S. 6.

Elektron prokurorluq informasiya sistemi haqqında əsasnamə : Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir // Xalq qəzeti. - 2022. - 4 mart. - № 49. - S. 8.

Əhmədov İ. İnformasiya cəmiyyəti və gənclər siyasəti // Azərbaycan müəllimi. - 2006. - 25 avqust. - S. 3.

Əhmədov İ. Təhsilin informatlaşması pedaqoji elmin yeni sahəsidir // Azərbaycan Müəllimi. - 2013. - 15 mart. - № 10. - S. 9.

Əhmədova S. İnformasiya dövrü və mütaliə problemi // Mədəni həyat. - 2012. - № 9. - S. 23, 24.

Eldarqızı S. İnformasiya texnologiyaları və uşaqlar // Yuva. - 2009. - № 2. - S. 26-29.

Əliyev A. İnformasiya cəmiyyəti sivilizasiyanın inkişaf tarixinin yeni mərhələsidir // Azərbaycan. - 2010. - 18 may. - N 106. - S. 8.

Əliyeva A. İnformasiya cəmiyyətinə birgə baxış : Mərkəzi Elmi Kitabxana və Kataloniya Milli Kitabxanasının bibliosferası // Azərbaycan. - 2011. - 13 noyabr. - № 250. - S. 7.

Əliyeva Z. İnformasiya cəmiyyəti və kitabxanalar // Mədəni - Maarif. - 2006. - №1. - S.42-43.

Əlizadə Ş. Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sektorunda da dünyanın sürətlə inkişaf edən ölkələri səviyyəsinə yüksəlib // Respublika. - 2015. - 28 iyul. - № 159. - S. 1.

Əmirova A. Yazılı mətbuatın internet mediası ilə rəqabəti // 525-ci qəzet. - 2018. - 10 fevral. - № 27. - S. 11.

Əzimova S. İnformatikanın tədrisində fənlərarası inteqrasiyanın tətbiqi // Kurikulum. - 2017. - № 2. - S. 58-62.

Feyzullayev S. İnformasiya cəmiyyətində kitabxanaların rolu // Yeni Mədəni-maarif jurnalı. - 2008. - № 10. - S. 67-68.

Haqverdiyev V. İnformasiya və inkişaf // Azərbaycan. - 2009. - 1 oktyabr. - N 217. - S. 11.

Həsrət A. İnformasiya cəmiyyətində şagirdlərdə informasiya mədəniyyətinin formalaşdırılması : informasiya cəmiyyəti və məktəbdə təlim prosesi // Azərbaycan məktəbi. - 2013. - № 6. - S. 94-99.

Həziyev Ə. İnformasiyalaşmanın müasir mədəniyyətin sosiodinamikasında rolu // Mədəniyyət.az. - 2017. - № 312. - S. 91-93.

Hüseynov H. Fiziki tərbiyə dərslərində "İnformasiya təminatı və nəzəri biliklər"in tədrisinin metodik xüsusiyyətləri // Kurikulum. - 2019. - № 2. – S. 39-42.

Hüseynov İ. Rabitə və informasiya texnologiyaları neft sənayesindən sonra Azərbaycanın iqtisadiyyatında ən inkişaf etmiş sektor olacaqdır // Вышка. - 2013. - 2 avqust. - № 30. - S. 8-9.

Hüseynova R. İKT və informasiya sahəsi tərəqqi yolunda // Səs. - 2014. - 22 aprel. - № 71. - S. 7.

İlham Əliyev. Elektron külliyyat : Yeni resursun təqdimatı olub // İki sahil. - 2018. - 2 may. - № 84. - S. 3.

İnformasiya dünyasına açılan qapılar : Kitabxanaların cəmiyyətdə rolu haqqında // Paritet. - 2007. - 25-26 sentyabr. - S.14.

İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( 26 sentyabr, 2012) // Xalq qəzeti. - 2012. - 27 sentyabr. - № 216. - S. 3.

İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktik problemləri mövzusunda V respublika konfransı // Xalq qəzeti. - 2019. - 30 noyabr. - № 266. - S. 6.

İsgəndərov A. İnformasiya cəmiyyətində elm və təhsilin vəhdəti : İctimai və humanitar elmlər: zaman kontekstində baxış // Respublika. - 2010. - 10 iyun. - N 123. - S. 5.

İsmayılov N. Kitabxanalarda informasiya mədəniyyətinin formalaşmasına dair ilk monoqrafik əsər // 525-ci qəzet. - 2019. - 13 dekabr. - № 163. - S. 8.

İsmayılova Ə. XXI əsrin informasiya məkanında oxuculara xidmət // Mədəni Həyat. - 2013. - avqust. - № 8. - S. 32-34.

İsmayılqızı X. İnformasiya təhlükəsizliyi ilə bağlı dövlət siyasəti, milli informasiya məkanı mövcuddur // İki sahil. - 2014. - 26 aprel. - № 72. - S. 14.

İsmayılqızı X. İnformasiya təhlükəsizliyi və sosial şəbəkələr // İki sahil. - 2022. - 18 yanvar. - № 9. - S. 6.

Kazımi P. İnformasiya mühiti və informasiya məkanı problemləri kitabxana konteksində // Kitabxana.az. - 2012. - № 1. - S. 2-5.

Kərimova N. Qloballaşan təhsildə informasiya texnologiyalarının tətbiqi // Kurikulum. - 2020. - № 1. - S. 20-24.

Kişiyev X. İnformasiya cəmiyyətinin əsas meyarları // Xalq qəzeti. - 2006. - 17 sentyabr. - S.6.

Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (29 dekabr 2015-ci il) // Azərbaycan : qəzet. - 2016. - 15 yanvar. - № 9. - S. 2.

Qasımova R. İnformasiya cəmiyyəti və təhsil // Azərbaycan müəllimi. - 2006. - 15 iyun. - S. 5.

Quliyeva G. İnformasiya texnologiyaları tərəqqinin zəruri amilidir // Xalq qəzeti. - 2005. - 23 noyabr. - S. 5.

Məmmədov H. Təhsilin informasiyalaşdırılması tədris prosesinin şəffaflığını təmin edir // Azərbaycan Müəllimi. - 2014. - 14 fevral. - № 6. - S. 4.

Məmmədov T. İnformasiya cəmiyyəti və təhsil // Azərbaycan məktəbi. - 2012. - № 2. - S. 31-36.

Məmmədov T. Müasir informasiya texnologiyaları təhsildə // Azərbaycan məktəbi. - 2015. - № 6. - S. 53-58.

Məmmədova Y. İnformasiya bazarı // Kitabxana.az. - 2011. - № 1. - S. 11-15.

Mükərrəmoğlu M. Azərbaycanda rabitənin 135 illik inkişaf tarixi - informasiya cəmiyyətinə keçid // Xalq qəzeti. - 2016. - 16 noyabr. - № 253. - S. 9.

Mustafayev S. "İnformasiya əldə etmək haqqında" qanun: hüquq və vəzifələr : Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov // Azərbaycan. - 2006. - 29 mart. - S. 3.

Nəsirova A. İnternet-media : Düşünmə və işləmənin yeni üsulu // Füyuzat. - 2018. - № 4. - S. 16-20.

Ömərov V. Milli mədəniyyət və informasiya cəmiyyəti // Səs. - 2017. - 30 dekabr. - № 241. - S. 15.

Rüstəmov A. İnternet media və informasiya təhlükəsizliyi // 525-ci qəzet. - 2020. - 13 may. - № 43. - S. 15.

Rüstəmov A. Jurnalistika və informasiya təhlükəsizliyi : cəmiyyətin, şəxsiyyətin, dövlətin təhlükəsizliyi qorunarkən həqiqi informasiyanı yalandan ayırmaq çox vacibdir // Kaspi. - 2018. - 18 aprel. - № 68. - S. 15.

Rüstəmov A. Jurnalistin cəmiyyət qarşısında məsuliyyəti : kütləvi informasiya vasitələri elə bir sosial qüvvədir ki... // Kaspi. - 2017. - 31 oktyabr. - № 182. - S. 15.

Şükürova F. Azərbaycan informasiya texnologiyaları sahəsində dünyanın aparıcı mərkəzlərindən birinə çevrilir // Palitra. - 2016. - 10 dekabr. - № 223. - S. 15.

Sultan M. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində qazanılan nailiyyətlər müzakirə olundu // Azərbaycan müəllimi. - 2010. - 30 iyul. - N 29. - S. 1.

Sultan M. Naxçıvanda informasiya-kommunikasiya texnologiyalarının inkişaf göstəriciləri // Palitra. - 2013. - 11 iyul. - № 123. - S. 10.

Vəliyev A. Elektron statistikanın və vahid informasiya sisteminin inkişafı istiqamətləri // Respublika. - 2014. - 12 aprel. - № 73. - S. 5.

Vəliyev A. İnformasiya texnologiyalarının modernləşdirilməsi Azərbaycanın rəsmi statistikasında // Azərbaycan. - 2010. - 23 dekabr. - N 282. - S. 6.

# İnformasiya anlayışı forma və onun xassələri

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**